Nigar Rəfibəyli – 110

**Sumqayıtdan yola yenicə çıxmışdım ki, maşının radiosunda unudulmaz Xalq şairi Nigar Rəfibəylinin sözlərinə Xalq artisti Emin Sabitoğlunun bəstələdiyi musiqilərdən ibarət konsert proqramı başlandı. Həzin ruhlu nəğmələrin, illah da "Aman ayrılıq" mahnısının qanadlarında 30 kilometrlik məsafənin necə başa çatdığını hiss etmədim.**

# Təravətini saxlayan xanım-xatın poeziya

*Mən ki doymamışdım heç vüsalından,*
*Mənə zülm eylədi yaman ayrılıq.*
*Nə olardı bir gün durub yuxudan*
*Görəydim ki, olub yalan ayrılıq…*



Təəssüf ki, nə ayrılıqlar yalana çıxır, nə də kövrək xatirələr unudulur. Yadıma nə zamansa Nigar Rəfibəylinin haqqında oxuduğum xatirələr düşür. Xüsusilə də xəstəxanada olduğu vaxt həyat yoldaşı Rəsul Rzanın ölüm xəbərinin ondan gizlədilməsi. Halı pisləşər deyə, bunu ona bildirmirlər. Təəccüblənir ki, ömür-gün dostu niyə ona zəng vurmur. Rəsul Rzanın təzyiq üzündən nasazladığını və həkimlərin ona bir müddət telefondan uzaq qalmağı tapşırdığını söyləyirlər. İyunun 23-də Nigar xanımın ad günündə oğlu Anar bəy ona böyük bir yasəmən dəstəsi alıb aparır və deyir: "Rəsul bu gülləri Mərdəkandan sənə göndərib". Evə qayıtdıqdan sonra 50 illik can sirdaşının yoxluğunu hiss edib yas saxlayır və bir həftə keçmir ki, o da haqq dünyasına qovuşur.



Bu günlərdə Nigar Rəfibəylinin anadan olduğu Gəncə şəhərindəki Xan bağında qoyulmuş heykəlinin qarşısında onun yubiley tədbiri keçirilib. AYB-nin və AMEA-nın Gəncə bölmələrinin təşkil etdikləri tədbirdə Nigar xanımın poetik dünyasının özünəməxsusluğundan, bəy qızı kimi mənəvi dünyasından danışılıb. Şairin yaradıcılığından nümunələr səsləndirilib.

Elə bu ay Nigar xanımın ruhunu şad edən daha bir tədbir Ankarada keçirilib. Xalq yazıçısı Anar Rzayevin anadan olmasının 85-ci ildönümü münasibətilə ona Beynəlxalq Türk Mədəniyyət Təşkilatı – TÜRKSOY-un 30 illik yubiley medalı təqdim edilib. Anarın Azərbaycan ədəbiyyatının inkişafına xidmətlərindən, türk dünyasının ədəbi-mədəni birliyinin möhkəmlənməsinə göstərdiyi köməkdən söhbət açılıb. Həmin mərasimdə Nigar xanımın nəvəsi Günel Anarqızı da çıxış edib. Təntənə Nigar Rəfibəyli və Rəsul Rzanın şeirlərinə bəstələnmiş məşhur mahnılardan ibarət konsertlə davam edib.

Anarın yazdığına görə, ailə borcu, analıq vəzifəsi, evin qayğıları Nigar xanımın yaradıcılığına mane olurdu. "Biz hamımız onun vaxtını talayırdıq, onu yazı masasından ayırırdıq, hisslərini, duyğularını, fikirlərini dağıdıb pərən-pərən edirdik... Öz-özü ilə tək qalmasına imkan vermirdik, qəlbiylə baş-başa qalmağa macal tapmırdı". Amma bütün bunlara baxmayaraq, Nigar Rəfibəylinin 35 kitabı çap edilibsə, deməli, əsl sənət aşiqi, yaradıcılıq fədaisi olub.

Qeyd edək ki, görkəmli şair, tərcüməçi Nigar Rəfibəyli Azərbaycan ədəbiyyatı qarşısındakı xidmətlərinə görə orden və medallarla təltif olunub, Əməkdar mədəniyyət işçisi və Xalq şairi adlarına layiq görülüb.

**Ə.DOSTƏLİ,**
**"Xalq qəzeti"**